# 2026

# Topçubaşov Məhkəmə Müsabiqəsi

# Yazılı Bələdçi

BAKI DÖVLƏT UNİVERSİTETİ **MƏHKƏMƏ MÜSABİQƏ CƏMİYYƏTİ** TƏRƏFİNDƏN TƏŞKİL OLUNUR

Veb-sayt: bsumootcourtsociety.org
E-poçt: info@bsumootcourtsociety.org

Bu Bələdçinin əsas məqsədi Topçubaşov Məhkəmə Müsabiqəsi (bundan sonra – Müsabiqə) iştirakçılarına müsabiqənin Yazılı mərhələsində tərəflərin yazılı mülahizələrinin (bundan sonra – Yazılı) hazırlanması ilə bağlı bəzi məqamları izah etməkdir. Bələdçidə əvvəlki illərin uğurlu Yazılılarından nümunələr daxil edilmişdir.

Bu Bələdçi Müsabiqənin Qaydalarına əsasən hazırlanmışdır və burada qeyd olunmayan məsələlər Qaydalara uyğun tənzimlənməlidir.

## MÜNDƏRİCAT

I. Ümumi Tələblər....3
II. Faktlardan və hüquqdan istifadə....3
III. Yazılının hissələri....4
A. Üz səhifəsi....4
B. Mündəricat....5
C. İstifadə olunmuş mənbələr....6
D. Giriş....7
E. İşdə istifadə edilən faktlar....7
F. Hüquqi arqumentlər....8
G. Arqumentlərin xülasəsi....9
H. Məhkəməyə müraciət....10

# I. Ümumi Tələblər

1. Yazılı maksimum 4000 sözdən ibarət ola bilər. Yazılıda istifadə olunan yazı şrifti Times New Roman, sətir aralığı 1.5, yazının ölçüsü 12 olmalıdır.
2. İştirakçı komanda hər iki Yazılını Microsoft Word (*.docx) formatında komanda kabinetindəki müvafiq bölmə vasitəsilə təqdim etməlidir. Yazılıların fayl adında komanda nömrəsi və ona bitişik olaraq Yazılının ərizəçi və ya cavabverən mövqeyindən olmasını göstərmək üçün müvafiq olaraq Ə və ya C hərfləri öz əksini tapmalıdır. Bundan əlavə, bələdçinin "**Yazılının hissələri**" başlığı altında göstərilən hissələrin Yazılıda qeyd olunması mütləqdir.

# II. Faktlardan və hüquqdan istifadə

1. İşdəki faktlardan hüququ həmin faktlara tətbiqi edərək yararlanmağa çalışın. Faktlardan yararlanmaq heç bir halda onların təhrif olunması kimi başa düşülməməlidir. İşin faktları qətidir və komandalar bunları dəyişilməz olaraq qəbul etməlidir.

2. Müsabiqə İşində həm Ərizəçi, həm də Cavabverənin xeyrinə istifadə edilə biləcək faktlar mövcuddur. Tərəflərdən birinin lehinə olan fakta qarşı istifadə ediləcək digər faktı həmin faktın yanında əks olunması mütləq deyil. Belə ki, həmin fakt Müsabiqə İşinin daxilində başqa bir hissədə də qeyd oluna bilər.

3. Aşağıdakı nümunədə bir İşə aid olan iki fərqli faktın təqdimatı ilə tanış ola bilərsiniz:

22 aprel 2020-ci il tarixində Dövlət Vergi Xidməti vergi nəzarəti tədbirlərinin süni intellektlə həyata keçirilməsinə imkan verən "Al-G" proqram təminatının istifadəsinə başladığını bəyan etmişdir. Proqram vergi qanunvericiliyini "təbii dil emalı" yolu ilə analiz edib faktlar üzərində tətbiq edərək hesabatlar hazırlayır.

5 iyun 2020-ci il tarixində Şirkətin elektron vergi sistemindəki kabinetində Şirkətin əmtəəsiz əməliyyatlara görə riskli vergi ödəyicisi kimi qeydə alındığı barədə bildiriş yerləşdirilmişdir. Bundan sonra Şirkət Xidmətin qərarının mübahisələndirilməsi barədə qərar vermişdir. Məsələ barədə Şikayət məktubu alan Xidmət qərarın ləğvi üçün əsas görmədiyini bildirmiş və bundan sonra Şirkət məhkəməyə müraciət etmişdir.

# III. Yazılının hissələri

Yazılının aşağıda verilmiş hər bir hissəsi yeni səhifədən başlamalıdır.

## A. Üz səhifəsi

1. Üz səhifəsi Qaydalara müvafiq olaraq Yazılıya daxil edilməli olan hissələrdən ibarətdir. Məsələn, aşağıda üz səhifəsinin necə tərtib olunmalı olduğuna dair nümunə əks olunmuşdur:

**KONSTİTUSİYA MƏHKƏMƏSİ**

**Teymur Həsənov**

**Ərizəçi**

**"Premium Həyat Sığorta" Açıq Səhmdar Cəmiyyəti**

**Cavabverən**

**7Ə**

**05.01.2025**

2. Komandalar tərəflərin adlarını Müsabiqə İşinə əsasən müəyyən edirlər. Tarix hissəsində isə Yazılıların komanda kabinetlərinə yerləşdirdikləri tarixi qeyd edirlər.

## B. Mündəricat

1. Mündəricatın Yazılıya daha rahat şəkildə daxil edilməsi və lazım olduğu təqdirdə avtomatik yenilənməsi üçün *Microsoft Word* və ya başqa mətn proqramının üslub və başlıq (*heading)* funksiyalarından istifadə etmək tövsiyə olunur:







2. Belə ki, proqram başlıq kimi işarələnmiş mətnləri mündəricat formasında indeksləyə bilir. Microsoft Word proqramında bunun üçün aşağıdakı hissədən istifadə etmək lazımdır: Nümunə mündəricat bölməsi aşağıdakı kimidir:

**MÜNDƏRİCAT**

**İstifadə olunmuş mənbələr** .......... **5**

**Giriş** .......... **6**

**İşdə istifadə edilən faktlar** .......... **6**

**Hüquqi arqumentlər** .......... **7**

**I. Mülki Məcəllədəki "yalan əqd" anlayışı Vergi Məcəlləsindəki "əmtəəsiz əməliyyat" anlayışı ilə zidd deyil** .......... **8**

**Arqumentlərin xülasəsi** .......... **8**

**Məhkəməyə müraciət** .......... **9**

3. Mündəricatı Yazılını tamamladıqdan sonra yeniləmək lazımdır. Bunun üçün *Word*-də alətlər panelindəki *References* bölməsindən *Update table* seçimini klikləmək lazımdır. Aşağıdakı şəklə diqqət yetirin:




## C. İstifadə olunmuş mənbələr

1. Burada Yazılı yazarkən istifadə etdiyiniz qanunvericiliyi, məhkəmə işlərini, doktrinal mənbələri və istifadə etdiyiniz digər etibarlı mənbələri qeyd edirsiniz. Mənbələrin adları tam və anlaşıqlı olmalıdır. Mənbələrin etibarlılığı və yazılma qaydası barədə məlumat üçün Bakı Dövlət Universiteti Tələbə Hüquq Jurnalının Məqalə Tələblərindəki qaydalara baxmağınız tövsiyə olunur.

   Nümunə üçün aşağıdakı mətnə baxa bilərsiniz:

**Qanunlar və Konvensiyalar**

1. Azərbaycan Respublikası Mülki Məcəlləsi (mad. 352, 360.1, 404.1, 417.1, 419.2, 420.2, 425.1, 427.5, 926.1)
2. “Fərdi məlumatlar haqqında” Azərbaycan Respublikası Qanunu (mad. 7.1.2, 7.1.4, 7.4, 13.1)
3. ......

**Məhkəmə qərarları**

1. “Azərbaycan Respublikası Mülki Məcəlləsinin 407.2-ci maddəsinin şərh edilməsinə dair” Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun Qərarı (12.08.2024)
2. “Stucker, College Life Insurance Company-yə qarşı” iş üzrə İndiana ştat Apellyasiya Məhkəməsinin Qərarı, §430 (1965)

## D. Giriş

1. Bu hissə Müsabiqə İşinin qısa icmalı kimi əsas hüquqi məsələləri və tərəfin mövqeyinə dair məqamlar əks etdirilir. Hissə oxucuda növbəti hissələr barədə daha aydın bir fikir formalaşmasına kömək edir.
2. Nümunə üçün aşağıdakı mətnə baxa bilərsiniz:

Ərizəçi Teymur Həsənov (bundan sonra “Ərizəçi”) Cavabverən “Premium Həyat Sığorta” ASC (bundan sonra “Cavabverən”) tərəfindən sığorta ödənişinin edilməməsinin, həmçinin, Ərizəçiyə məxsus şəxsi məlumatların bölüşülməsinin və “Güvən Bank” ASC (bundan sonra – Bank)-dan ona məlum olmayan məlumatların əldə edilməsinin qanunsuz olduğunu hesab edir. Belə ki, Cavabverən Rusiya və Ukrayna arasında olan silahlı münaqişəni əsassız olaraq müharibə kimi qiymətləndirmiş və buna görə də sığorta ödənişi etməmiş, Ərizəçiyə məxsus sığorta sirrini üçüncü şəxslərlə paylaşmış və Bankdan qanunsuz olaraq alınmış məlumatlardan istifadə edərək illik sığorta ödənişini artırmışdır.

## E. İşdə istifadə edilən faktlar

1. Bu hissədə Müsabiqə İşində əhəmiyyət kəsb edən faktlar lakonik şəkildə xronoloji ardıcıllıqla təqdim edilir. Nümunə üçün aşağıdakı mətnə baxa bilərsiniz:

1. Ərizəçi həm Rusiya, həm də Azərbaycan vətəndaşlığına malikdir. Onun həm rəsmi nikahda olduğu Nataşa Həsənovadan Aytac adlı qızı, həm də qeyri-rəsmi münasibətdə olduğu Nailə Osmanovadan isə Adil adlı yetkinlik yaşına çatmayan oğlu var.
2. Cavabverən və Bank arasında bağlanan tapşırıq müqaviləsinə əsasən, Bank Cavabverənin sığorta agenti olaraq sığorta vasitəçiliyi fəaliyyəti ilə də məşğul olur.
3. Ərizəçi 15.11.2021 tarixində Bankın mobil tətbiqində və illik 16% ilə 3 il müddətinə 45000 AZN məbləğində istehlak krediti götürmüşdür. Bank ilə Cavabverən arasındakı əməkdaşlığa əsasən istehlak krediti götürülən zaman borclunun həyatı Cavabverən tərəfindən sığortalanmalıdır. Buna uyğun olaraq Ərizəçi krediti götürərkən onun həyatı Cavabverən tərəfindən sığortalanmışdır.

## F. Hüquqi arqumentlər

1. Bu hissə Yazılının ən əsas hissəsidir. Burada Müsabiqə İşində Konstitusiya Məhkəməsinə ünvanlanan suallar əsasında, yəni xülasədə qeyd olunan başlıqlar üzrə əsaslandırılır.
2. Sözügedən hissədə hüquqi əsaslandırma metodu kimi IRAC (*I – Issue, R – Rule, A – Application, C – Conclusion)* metodundan istifadə oluna bilər. Bu metoddan istifadə zamanı barəsində mövqe irəli sürülməli olan məsələ (*issue)* qeyd edilir. Daha sonra tətbiq olunacaq qaydalar *(rule)* sıralanır və ehtiyac olarsa, qaydaların izah və təfsiri təqdim olunur. Təqdim olunmuş qayda və onun izahı faktlara tətbiq (*application*) olunur. Yekunda, adətən bir cümlə ilə əsaslandırmanın məntiqi nəticəsi *(conclusion)* təqdim edilir.
3. Hər başlıqda bu qaydanın (*rule*) yalnız bir dəfə tətbiq edilməsi mütləq deyildir. Bir başlıq və ya məsələ üzrə müxtəlif hüquq qaydaları sistemli şəkildə izah, təfsir və tətbiq edilə bilər. Daha rahat başa düşülməsi üçün bir məsələnin əsaslandırılması ayrı-ayrı paraqraflara da bölünə bilər.
4. Nümunə üçün aşağıdakı mətnə baxa bilərsiniz:

**B. Bədbəxt hadisə nəticəsində baş verən sığorta hadisəsinin tarixinin müəyyənləşdirilməsi qanunvericiliklə dəqiq tənzimlənmədiyi halda, sığorta ödənişinin verilməsi üçün əlilliyin təyin edildiyi tarixin əsas götürülməsi ümumi sığorta prinsiplərinə ziddir.**

1. Cavabverən ilə Ərizəçi arasında sığorta müqaviləsinin bağlanması faktını təsdiq edən sığorta şəhadətnaməsində sığorta təminatı altına alınan sığorta riskləri sırasında ölüm halı, həmçinin xəstəlik və ya bədbəxt hadisə nəticəsində 1-ci, 2-ci və ya 3-cü dərəcə əlilliyin təyin edilməsi göstərilmişdir. Müqavilə şərtlərini təfsir edərkən məhkəmə təkcə müqavilədəki söz və ifadələrin hərfi mənasını deyil, həm də tərəflərin iradə ifadəsinin həqiqi mənasını, bütövlükdə müqavilənin hərfi mənasının onun digər şərtləri və mənası ilə müqayisəsini nəzərə alır.

2. MM-in müvafiq müddəasının mahiyyətincə, sığorta təminatı qismində "xəstəlik və ya bədbəxt hadisə nəticəsində 1-ci, 2-ci və ya 3-cü dərəcə əlilliyin təyin edilməsi"nin göstərilməsi sığorta ödənişinin əlilliyin təyin edildiyi tarixdən edilməsi üçün əsas kimi götürülə bilməz. Sığorta şəhadətnaməsinin yönəldiyi məqsəd başqadır: Nəzərə alınmalıdır ki, heç də bütün xəstəlik və ya bədbəxt hadisələr son nəticədə əlilliyə səbəb olmur. Bu səbəbdən də tərəflər bütün xəstəlik və ya bədbəxt hadisələrə deyil, yalnız baş verməsi əlilliyə səbəb olan xəstəlik və ya bədbəxt hadisələrin mövcudluğu halı

**Qeyd:** Hüquqi arqumentlər başlığında qeyd olunanlar *Styles* hissəsindəki *Heading 2* kimi işarələnməlidir ki, Mündəricat indekslənərkən "Hüquqi arqumentlər" başlığının alt-başlıqları kimi mündəricatda çıxsın (bu o deməkdir ki, İşdə istifadə edilən faktlar, Arqumentlərin xülasəsi və digər əsas başlıqlar *Heading 1* kimi işarələnir):




## G. Arqumentlərin xülasəsi

1. Bu hissə Yazılıda təqdim olunmuş arqumentlər üçün nəticə xarakteri daşıyır. Hüquqi arqumentlər hissəsində aydınlaşdırılmış və əsaslandırılması aparılmış arqumentlərin hər biri xülasədə qeyd olunur.

2. Nümunə üçün aşağıdakı mətnə baxa bilərsiniz:

I. Rusiya və Ukrayna arasında baş verən silahlı münaqişə zamanı Ərizəçinin yaralanması nəticəsində ona sığorta ödənişinin edilməsindən imtina qanunauyğun deyil.

II. Bədbəxt hadisə nəticəsində baş verən sığorta hadisəsinin tarixinin müəyyənləşdirilməsi qanunvericiliklə dəqiq tənzimlənmədiyi halda, sığorta ödənişinin verilməsi üçün əlilliyin təyin edildiyi tarixin əsas götürülməsi ümumi sığorta prinsiplərinə ziddir.

## H. Məhkəməyə müraciət

1. Bu hissədə məhkəmədən hansı məsələlər üzrə və hansı qaydada qərar qəbul etməsi üçün xahiş etdiyiniz göstərilir.
2. Nümunə üçün aşağıdakı mətnə baxa bilərsiniz

### Məhkəməyə müraciət

Yuxarıda qeyd olunan faktiki halları nəzərə alaraq və qeyd edilən hüquq normalarına əsaslanaraq Məhkəmədən

**XAHİŞ EDİRİK:**

1. Teymur Həsənovun "Premium Həyat Sığorta" ASC-ə qarşı sığorta ödənişinin edilməsi, Ərizəçiyə məxsus şəxsi məlumatların qanunsuz bölüşülməsi nəticəsində ona dəymiş zərərin ödənilməsi, Ərizəçinin hər il standart sığorta haqqı məbləğindən artıq ödədiyi əlavə məbləğin ona geri qaytarılması tələbinə dair mülki iş üzrə Azərbaycan Respublikası Ali Məhkəməsinin Mülki Kollegiyasının Qərarı Azərbaycan Respublikası Konstitusiyasının 32 və 60-cı maddəsinə, Azərbaycan Respublikası Mülki-Prosessual Məcəlləsinin 417.1.4-cü və 417.2-ci maddələrinə uyğun olmadığından qüvvədən düşmüş hesab edilsin.
2. İşə bu Qərarda göstərilən hüquqi mövqelərə uyğun olaraq Azərbaycan Respublikasının mülki-prosessual qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və müddətdə yenidən baxılsın.